| | |
|---|---|
| AKTIN NÖVÜ | Qanunlar |
| QƏBUL EDİLDİYİ TARİX | 04.12.2001 |
| QEYDİYYAT NÖMRƏSİ | 224-IIQ |
| ADI | Kommersiya sirri haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-12-2001, Nəşr nömrəsi: 12, Maddə nömrəsi: 741) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 110.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**Kommersiya sirri haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

I fəsil

**ÜMUMİ MÜDDƏALAR**

Maddə 1. **Qanunun *tətbiq sahəsi***

1.1. Bu Qanun Azərbaycan Respublikasında kommersiya sirri ilə əlaqədar yaranan münasibətləri tənzimləyir.
1.2. Azərbaycan Respublikasında bütün hüquqi və fiziki şəxslərin kommersiya sirrini təşkil edən məlumatlarının, onların ifadə edilməsi üsulundan və daşıyıcısından asılı olmayaraq qorunma hüququ vardır.
1.3. Kommersiya sirrindən dövlətin, hüquqi və fiziki şəxslərin qanuni mənafelərinin ziddinə istifadə edilə bilməz.
*1.4. Ələt azad iqtisadi zonasında kommersiya sirri ilə əlaqədar yaranan münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.*[1]

Maddə 2. **Əsas anlayışlar**

2.0. Bu Qanunun məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə olunur:
2.0.1. **kommersiya sirri** - hüquqi və fiziki şəxslərin istehsal, texnoloji, idarəetmə, maliyyə və başqa fəaliyyəti ilə bağlı, sahibinin razılığı olmadan açıqlanması, onların qanuni maraqlarına ziyan vura bilən məlumatlar;
2.0.2. **"nou-hau"** - əqli fəaliyyətin nəticəsi kimi kommersiya sirrinə aid edilən, qanunvericiliyə, yaxud sahibinin mülahizələrinə əsasən patentlə mühafizə olunmayan məlumatlar;
2.0.3. **kommersiya sirrinin sahibi** - kommersiya sirrinə qanuni əsaslarla malik olan hüquqi və ya fiziki şəxs;
2.0.4. **kommersiya sirrinin konfidenti** - kommersiya sirrini qanuni əsaslarla kommersiya sirrinin sahibindən əldə edən hüquqi və ya fiziki şəxs;
2.0.5. **kommersiya sirrinin daşıyıcıları** - kommersiya sirrinin işarələr, təsvirlər, düsturlar, texnoloji proseslər, siqnallar və başqa formada ifadə edildiyi maddi və qeyri-maddi obyektlər;
2.0.6. **kommersiya sirrinin rejimi** - kommersiya sirrinin əldə edilməsinin məhdudlaşdırılması üzrə kommersiya sirrinin sahibi və ya konfident tərəfindən müəyyən olunmuş hüquqi, təşkilati, texniki və digər tədbirlər sistemi;
2.0.7. **kommersiya sirrini yaymaq** - müvafiq qanunvericiliyin, yaxud müqavilə şərtlərinin pozulması yolu ilə kommersiya sirrinin başqa şəxslərə açıqlanması;
2.0.8. **kommersiya sirrinin əldə olunmasının qeyri-qanuni üsulları** -kommersiya sirrinin sənədləri oğurlamaq, fotoşəklini çəkmək, surətini çıxarmaq, zor tətbiq etmək və ya hədələmək, rüşvət vermək, kommersiya sirrinin rejiminə riayət olunması öhdəliklərini pozmaq və ya pozmağa təhrik (vadar) etmək, məlumatların ötürülmə kanallarına qoşulmaq, danışıqlara qulaq asmaq və müşahidə aparmaq kimi qeyri-qanuni üsullarla əldə edilməsi.

Maddə 3. **Məlumatın kommersiya sirrinə aid edilməsinin meyarları**

3.0. Məlumatların kommersiya sirrinə aid edilməsinin meyarları aşağıdakılardır:
3.0.1. kommersiya dəyərinə malik olması (başqa şəxslərə məlum olmadığına görə fəaliyyət sahəsində üstünlük qazanmaq və mənfəət əldə etmək baxımından əhəmiyyətlidir, digər şəxslərə bütövlükdə, yaxud hissələrlə satıla, bağışlanıla, müqavilə əsasında, yaxud varislik qaydasında verilə bilər və s.);
3.0.2. məlumatın məxfiliyinin qorunması məqsədilə sahibi tərəfindən hüquqi, təşkilati, texniki və digər tədbirlərin həyata keçirilməsi;
3.0.3. bu məlumatların sərbəst əldə olunmasının qanuni əsaslarla məhdudlaşdırılması.

Maddə 4. **Kommersiya sirri hesab edilən məlumatlar**

4.1. Aşağıdakılar istisna edilməklə, hüquqi və fiziki şəxslərin bu Qanunun tələblərinə uyğun olan məlumatları kommersiya sirri hesab edilir:
4.1.1. dövlət sirrini təşkil edən məlumatlar;
4.1.2. təsis sənədlərində əksini tapan məlumatlar (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla);[2]
4.1.3. sahibkarlıq fəaliyyətinin bəzi növləri ilə məşğul olmaq hüququ verən lisenziyalar haqqında məlumatlar;
4.1.4. qanunvericilikdə nəzərdə tutulan hallarda auditor rəyi daxil olmaqla maliyyə~~(mühasibat)~~ hesabatlarında olan məlumatlar;[3]
4.1.5. Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən vergi ödəyicisi barədə *vergi* sirri hesab olunmayan məlumatlar;[4]
4.1.6. əməyin ödənilməsi formaları və məbləği barədə, əmək haqqı və sosial ödənişlər üzrə borclar, işçilərin say tərkibini, boş iş yerlərinin mövcudluğunu əks etdirən məlumatlar;
4.1.7. patent və digər mühafizə sənədləri ilə qorunan əqli mülkiyyət obyektləri haqqında məlumatlar;
4.1.8. qiymətli kağızlar *bazarı* haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən qiymətli kağızların emitenti, *qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər, mərkəzi depozitar, səhmdar investisiya fondu və investisiya fondunun idarəçisi* tərəfindən açılmalı olan məlumatlar;[5]
4.1.9. qeyri-kommersiya təşkilatlarının fəaliyyəti barədə məlumatlar;
4.1.10. özəlləşdirmənin dövlət proqramının həyata keçirilməsi və konkret obyektlərin özəlləşdirmə şərtləri barədə məlumatlar;
4.1.11. hüquqi şəxsin ləğvi və onun kreditorları tərəfindən tələblərin irəli sürülməsi qaydası və müddəti barədə məlumatlar;
4.1.12. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən barəsində məsuliyyət növü nəzərdə tutulan əməllərə dair məlumatlar ;
4.1.13. ekoloji və antiinhisar qanunvericiliyinə əməl olunması, əməyin təhlükəsizliyinin təmin edilməsi, əhalinin sağlamlığına

ziyan vura bilən məhsulların satışı ilə bağlı məlumatlar;

4.1.14. kommersiya sirri rejiminin qoyulması qüvvədə olan qanunvericiliklə məhdudlaşdırılan məlumatlar;

4.1.15. telekommunikasiya operatoruna və telekommunikasiya provayderinə nömrə resursunun ayrılması, dəyişdirilməsi və geri alınması haqqında məlumatlar;[6]

4.1.16. qanunvericiliyə əsasən kommersiya sirri hesab edilməyən digər məlumatlar.

4.2. Hüquqi və fiziki şəxslərin bank sirrini təşkil edən məlumatlarının qorunması və istifadəsi müvafiq qanunvericiliklə tənzimlənir.

M a d d ə 5 . **Kommersiya sirri sahibinin hüquqları**

5.0. Kommersiya sirri sahibinin aşağıdakı hüquqları vardır:

5.0.1. kommersiya sirri rejimini müəyyən etmək, dəyişmək və ləğv etmək;

5.0.2. kommersiya sirrindən istifadə etmək, müqavilə əsasında başqa şəxslərə vermək, mülki dövriyyəyə daxil edilmənin digər üsullarını tətbiq etmək;

5.0.3. kommersiya sirrinin rejimini pozan və ya belə rejimin pozulmasına təhlükə yaradan hərəkətlərdən qanunvericiliyə uyğun olaraq müdafiə olunmaq;

5.0.4. kommersiya sirrindən öz maraqları üçün istifadə etmiş şəxslərdən vurulan ziyanın əvəzini məhkəmə qaydasında almaq.

I I f ə s i l

## KOMMERSİYA SİRRİ REJİMİ

M a d d ə 6 . **Kommersiya sirri rejiminin müəyyən edilməsi**

6.1. Kommersiya sirrinin rejimi kommersiya sirrinin sahibi tərəfindən müəyyən olunur.

6.1.1. Kommersiya sirri rejiminin müəyyənləşdirilməsi müqavilə əsasında kommersiya sirrinin konfidentinə həvalə oluna bilər.

6.1.2. Kommersiya sirrinin sahibi və konfidenti kommersiya sirri rejiminə riayət etməyə borcludurlar.

6.2. Məlumatın Kommersiya sirrinə aid olması "Kommersiya sirri" şifri ilə ifadə edilir. Qeyd olunan şifr məlumatın daşıyıcısında və (və ya) onu müşayiət edən sənədlərdə həkk olunur.

6.3. Qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla, kommersiya sirri rejimini müəyyən edən şəxs kommersiya sirri şifrinin qoyulmasını və götürülməsini, kommersiya sirrinin əldə edilməsi və açıqlanması şərtlərini, kommersiya sirrini təşkil edən məlumatın qorunması üsullarını, ötürülməsi vasitələrinin seçilməsini, istifadə olunma şərt sərbəst müəyyənləşdirir.

6.4. Kommersiya sirri rejiminin təmin olunmasının əsas şərti – bu Qanunun 6.1-ci maddəsində göstərilən şəxslərin kommersiya sirrini yaymamaq öhdəliklərini təsdiq edən müqavilənin bağlanmasıdır.

6.5. Kommersiya sirri rejiminin təmin olunmasının əlavə şərtləri kommersiya sirrinin sahibi tərəfindən kommersiya sirrinin konfidenti ilə razılaşdırılmaqla müəyyən edilir. Əlavə şərtlərə kommersiya sirrini təşkil edən məlumatları əldə etmənin xüsusi qaydası, göstərilən məlumatlarla əlaqədar sənədlərə xüsusi şifrin qoyulması, həmin məlumatları əldə edə bilən fiziki şəxslərin əhatəsinin məhdudlaşdırılması aid edilə bilər.

M a d d ə 7 . **Mülki hüquq müqavilələrində kommersiya sirri rejiminin müəyyənləşdirilməsi**

7.1. Mülki-hüquq müqavilələrinə məxfilik haqqında şərtlərin daxil edilməsi, yaxud bu müqavilələrlə bərabər yazılı formada razılaşma bağlanması kommersiya sirri rejiminin müəyyən edilməsinin zəruri şərtidir.

7.2. Mülki-hüquq müqavilələrinə əsasən kommersiya sirrini əldə edən və onun yayılmasına yol verən, yaxud kommersiya sirrinin digər şəxslərə verilməsi qaydası barədə müqavilənin şərtlərini pozan konfident müvafiq qanunvericiliyə əsasən məsuliyyət daşıyır.

M a d d ə 8 . **Kommersiya sirri rejiminin dəyişdirilməsi və ya ləğvi**

Kommersiya sirri sahibinin bağladığı müqavilələrdə və razılaşmalarda üzərinə götürdüyü öhdəlikləri pozmadan kommersiya sirrinin rejimini dəyişdirmək və ya ləğv etmək hüququ vardır. Kommersiya sirrinin sahibi kommersiya sirrinin rejimini dəyişdirərkən və ya ləğv edərkən müvafiq razılaşma bağladığı konfidenti yazılı məlumatlandırmağa borcludur.

M a d d ə 9 . **Kommersiya sirrini təşkil edən məlumatın qanuni yolla əldə olunması və istifadəsi**

9.1. Sahibindən müqavilə əsasında alınan və ya vərəsəlik qaydasında keçən kommersiya sirri təşkil edən məlumatlar qanuni yolla əldə olunan sayılır.

9.2. Qeyri-qanuni vasitələrdən istifadə etmədən toplanılan məlumatın məzmunu digər şəxsin kommersiya sirrinə uyğun gəlməsindən asılı olmayaraq qanuni və müstəqil yolla əldə olunan məlumat sayılır.

I I I f ə s i l

## ƏMƏK MÜNASİBƏTLƏRİNDƏ KOMMERSİYA SİRRİNİN QORUNMASI

M a d d ə 1 0 . **İşçilərin müəyyən edilən kommersiya sirri rejiminə əməl etmə öhdəlikləri**

10.1. Kommersiya sirrini təşkil edən məlumatların müəyyən edilmiş rejiminə əməl etmək öhdəliyi əmək müqaviləsinə və ya kommersiya sirrinin rejiminə əməl etmək barədə razılaşmaya əsasən kommersiya sirrinin konfidenti olan işçilərin üzərinə qoyulur.

10.2. İşçinin kommersiya sirrini əldə etməyə buraxılması onun razılığı ilə həyata keçirilir və aşağıdakıları nəzərdə tutur:

10.2.1. Azərbaycan Respublikasının kommersiya sirri haqqında qanunvericiliyinin kommersiya sirri rejiminin pozulmasına görə məsuliyyəti nəzərdə tutan normaları ilə tanışlıq;

10.2.2. işəgötürənin kommersiya sirrini təşkil edən məlumatların siyahısı ilə tanışlıq.

M a d d ə 1 1 . **Əmək münasibətlərinə xitam verildikdən sonra kommersiya sirrinin qorunması**

11.1. Əmək müqaviləsinə və ya kommersiya sirri rejiminə əməl etmək barədə razılaşmaya əsasən kommersiya sirrinin konfidentləri əmək müqaviləsinə xitam verildikdən sonra məlumatın kommersiya sirrinə aid edilməsi ləğv olunanadək kommersiya sirrinin rejiminə riayət etməyə borcludurlar.

11.2. Əmək münasibətlərinə xitam verilərkən, işçi sərəncamında olan, kommersiya sirrinin təşkil daşıyıcılarını işəgötürənin

tələbinə əsasən qaytarmağa borcludur.

IV fəsil

## "NOU-HAU"NUN KOMMERSİYA SİRRİ REJİMİNDƏ HÜQUQİ MÜHAFİZƏSİNİN XÜSUSİYYƏTLƏRİ

Maddə 12. **"Nou-hau"ya mülkiyyət hüququ**

12.1. Əqli mülkiyyət obyekti kimi "nou-hau" kommersiya sirri rejimində qorunur.
12.2. "Nou-hau"nun sahibinin aşağıdakı hüquqları vardır:
12.2.1. Qeyri-maddi aktivlərin tərkibinə daxil etməklə "nou-hau"dan şəxsi istehsalatında istifadə etmək;
12.2.2. bu fəsildə nəzərdə tutulmuş qaydada "nou-hau"ya bütün hüquqların və ya hüquqların müəyyən hissəsini müqavilə əsasında digər şəxsə vermək;
12.2.3. bu Qanunda nəzərdə tutulan hallarda "nou-hau"dan istifadə olunmasına görə mükafatlandırılmaq.
12.2.4. "nou-hau" sahibinin hüquqları "nou-hau"nun yaranması və barəsində mühafizə tədbirləri görülməsi faktı ilə meydana çıxır.
"Nou-hau"ya mülkiyyət hüquqlarının verilməsi müəyyən rəsmiləşdirilməni (qeydiyyatdan keçmə, şəhadətnamə alma və s.) tələb etmir.

Maddə 13. **"Nou-hau"ya mülkiyyət hüquqlarının verilməsi**

13.1. "Nou-hau"ya mülkiyyət hüquqları onun sahibi tərəfindən bütövlükdə və ya hissələrlə "nou-hau"dan istifadə hüquqlarının verilməsi haqqında müqaviləyə və ya alqı-satqı müqaviləsinə əsasən digər fiziki və hüquqi şəxslərə verilə bilər.
13.1.1. Yazılı formada bağlanan müqavilədə "nou-hau"nun verilmə qaydası, kommersiya sirri rejiminin müəyyən edilməsi və ona əməl olunması, "nou-hau"nun həcmi və ondan istifadə üsulları, mükafatın həcmi və ödənilmə qaydası, müqavilənin qüvvədə olma müddəti və s. mühüm şərtlər nəzərdə tutulur.
13.2. Fiziki şəxslərin "nou-hau"ya mülkiyyət hüquqları qanunvericiliyə uyğun olaraq vərəsəlik qaydasında keçir.
13.3. Hüquqi şəxs yenidən təşkil olunduqda, "nou-hau"ya hüquqlar hüquq varisliyi əsasında yeni yaranmış hüquqi şəxsə keçir.

Maddə 14. **Xidməti tapşırığın yerinə yetirilməsindən yaranan "nou-hau"ya mülkiyyət hüquqları**

14.1. Xidməti tapşırığın yerinə yetirilməsindən yaranan "nou-hau"ya mülkiyyət hüququ işəgötürənlə işçi ("nou-hau"nun müəllifi) arasında bağlanan müqavilədə başqa hal nəzərdə tutulmamışdırsa, işəgötürənə məxsusdur.
14.2. İşəgötürən "nou-hau"dan istehsalatında istifadə edərkən işçiyə ("nou-hau"-nun müəllifinə) mükafat verir.
14.2.1. Mükafatın ödənilməsi qaydası və məbləği işçi ilə işəgötürən arasında bağlanan müqavilə ilə tənzimlənir.
14.3. işəgötürən işçi ilə əmək müqaviləsi bağlananadək işçiyə məxsus olan "nou-hau"ya mülkiyyət hüququnu əldə etmir.
14.3.1. Bu halda "nou-hau"ya mülkiyyət hüququnun əldə edilməsi qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

Maddə 15. **Mülki-hüquq müqavilələrinin həyata keçirilməsindən yaranan "nou-hau"-ya mülkiyyət hüququ**

15.1. Elmi-tədqiqat, təcrübə-konstruktor və texnoloji işlərin yerinə yetirilməsi müqavilələrində başqa hallar nəzərdə tutulmadıqda və müqavilə üzrə sifarişçi dövlət hakimiyyəti və yerli (bələdiyyə) orqanı olmadıqda:
15.1.1. mülki-hüquq müqaviləsinin həyata keçirilməsindən yaranan "nou-hau"ya mülkiyyət hüququ sifarişçiyə məxsusdur;
15.1.2. icraçı müqavilənin yerinə yetirilməsindən əldə edilən "nou-hau"dan istehsalatında istifadə etmək hüququna malikdir;
15.1.3. icraçı sifarişçinin yazılı razılığı olmadan göstərilən "nou-hau"nu üçüncü şəxslərə vermək hüququna malik deyil.
15.2. Podrat müqaviləsinin yerinə yetirilməsi zamanı sifarişçi tərəfindən əldə edilən "nou-hau" hüququ müqavilə bağlananadək bu müqavilənin yerinə yetirilməsindən asılı olmayaraq sifarişçi tərəfindən əvəzsiz istifadə hüququnu yaratmır.

Maddə 16. **Dövlət hakimiyyəti orqanları ilə münasibətdə yaranan "nou-hau"ya mülkiyyət hüquqları**

"Nou-hau" işlərin nəticələrinin ayrılmaz hissəsi və ya onların təhlükəsiz istifadəsinin şərti olmadıqda, habelə müqavilədə başqa hallar nəzərdə tutulmadıqda, dövlət hakimiyyəti orqanları ilə bağlanan elmi-tədqiqat, təcrübə-konstruktor və texnoloji işlərin yerinə yetirilməsi müqavilələrindən irəli gələn "nou-hau" hüququ icraçıya məxsusdur.

V fəsil

## YEKUN MÜDDƏALAR

Maddə 17. **Bu Qanunun pozulmasına görə məsuliyyət**

17.1. Kommersiya sirri təşkil edən məlumatları qeyri-qanuni yolla əldə edən və ya yayan şəxslər Azərbaycan Respublikasının müvafiq qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.
17.2. Dövlət orqanlarının vəzifəli şəxsləri xidməti vəzifələrini yerinə yetirərkən onlara məlum olan kommersiya sirrini qorumağa borcludurlar. Bu məlumatlar ancaq müvafiq qanunvericiliklə nəzərdə tutulmuş hallarda açıqlana bilər.

Maddə 18. **Qanunun qüvvəyə minməsi**

Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 4 dekabr 2001-ci il
224-IIQ

-

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

-


1. 28 sentyabr 2004-cü il tarixli 765-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 12, maddə 973**)
2. 20 oktyabr 2006-cı il tarixli 170-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 932**)

3. 12 iyun 2012-ci il tarixli **381-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **"Respublika" qəzeti 10 iyul 2012-ci il, 150, "Azərbaycan" qəzeti 17 iyul 2012-ci il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 07, maddə 650)**

4. 11 noyabr 2016-cı il tarixli **391-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 dekabr 2016-cı il, 280 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2004)**

5. 17 noyabr 2017-ci il tarixli **861-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 10 dekabr 2017-ci il, 273 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, I kitab maddə 2224)**

6. 28 dekabr 2018-ci il tarixli **1410-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 1 fevral 2019-cu il, 25, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 27)**

7. 9 aprel 2019-cu il tarixli **1563-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 23 aprel 2019-cu il, 87 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 599)**

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

---

[1] 28 dekabr 2018-ci il tarixli **1410-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 1 fevral 2019-cu il, 25, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 27**) ilə 1-ci maddənin adında "**məqsədi**" sözü "**tətbiq sahəsi**" sözləri ilə əvəz edilmişdir və yeni məzmunda 1.4-cü maddə əlavə edilmişdir.

[2] 12 iyun 2012-ci il tarixli **381-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **"Respublika" qəzeti 10 iyul 2012-ci il, 150, "Azərbaycan" qəzeti 17 iyul 2012-ci il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 07, maddə 650**) ilə 4.1.2-ci maddəsində "**məlumatlar**" sözündən sonra "**(kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla)**" sözləri əlavə edilmişdir.

[3] 9 aprel 2019-cu il tarixli **1563-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 23 aprel 2019-cu il, 87 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 599**) ilə 4.1.4-cü maddədən "**(mühasibat)**" sözü çıxarılmışdır.

[4] 17 noyabr 2017-ci il tarixli **861-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 10 dekabr 2017-ci il, 273 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, I kitab maddə 2224**) ilə 4.1.5-ci maddədə "**kommersiya**" sözü "**vergi**" sözü ilə əvəz edilmişdir.

[5] 28 sentyabr 2004-cü il tarixli 765-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 12, maddə 973**) ilə 4.1.8-ci maddədə "**və qiymətli kağızların mülkiyyətçiləri** " sözləri "**və ya qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatı**" sözləri ilə əvəz edilmişdir.

11 noyabr 2016-cı il tarixli **391-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 17 dekabr 2016-cı il, 280, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2004**) ilə 4.1.8-ci maddəsinə "**qiymətli kağızlar**" sözlərindən sonra "**bazarı**" sözü əlavə edilmişdir və həmin maddədə "**qiymətli kağızlar bazarının peşəkar iştirakçısı və ya qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatı**" sözləri "**qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər, mərkəzi depozitar, səhmdar investisiya fondu və investisiya fondunun idarəçisi**" sözləri ilə əvəz edilmişdir.

[6] 20 oktyabr 2006-cı il tarixli 170-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 11, maddə 932**) ilə 4.1.15-ci maddəsi 4.1.16-cı maddə hesab edilsin və aşağıdakı məzmunda 4.1.15-ci maddə əlavə edilmişdir.